# Mövzu 18. AZƏRBAYCAN XX ƏSRİN ƏVVƏLLƏRİNDƏ

## PLAN

1. **Azərbaycan sənayesi və kənd təsərrüfatının vəziyyəti.**
2. **Milli-demokratik hərəkat və siyasi mübarizə**
3. **Azərbaycan Birinci dünya  müharibəsi illərində**
4. **XX əsrin əvvəllərində mədəni yüksəliş.**

XX əsrin əvvəllərində Rusiya  imperiyasında sənaye kapitalizminin inhisar mərhələsinin inkişafı dünya iqtisadi böhranı ilə bir dövrə düşmüşdü. 1900-1903-cü illərdə ölkədə 3 mindən çox sənaye müəssisəsi bağlanmış, 200 mindən artıq adam işsiz qalmışdı. Böhran Azərbaycan iqtisadiyyatına, xüsusilə neft sənayesinə güclü təsir etmişdi. Neft hasilatı 1901-ci ildəki 667,1 mln.puddan 1903-cü ild 601,5 mln. puda enmişdi. Böhran neft istehsalı və emalı ilə məşğul olan шirkətlərin vəziyyətinə ciddi təsir göstərmişdi. 1903-cü ild 170 şirkətdən ancaq 153-ü fəaliyyət gюstərirdi.

Böhran illərində işsizlik sürətlə artmağa başladı. 1901-1903-cü illərdə Bakı fəhlələrinin təxminən 30 faizi işdən çıxarılmış, neft sənayesindəki fəhlələrin sayı 35,9 min nəfərdn 26,8 min nəfərə enmişdi.

Böhran illərində istehsalın təmərküzləşməsi xeyli güclənmişdi. 1901-ci ildə Bakıda 146 şirkətdən 5 ən iri şirkət (Nobel qardaşları birliyi, Rotşild, Mantaşev və  Xəzər – Qara dəniz birliyi, Bakı neft cəmiyyəti) bütün neft istehsalыныn 42,5 %-ni öz əlində cəmləşdirmişdi. Rusiyanın daxili  bazarlarında satılan neftin 50 %-i, xaricə göndərilən neftin 70 %-i bu şirkətlərə məxsus idi.

Neft sяnayesindяki durğunluğun səbəbləri yeni geoloji kəşfiyyat quyularının qazılmaması, mövcud quyuların ancaq 48 %-dən istifadə olunmasında, mədənlərin texniki cəhətdən təkmilləşdirilməsi və yeni texnologiyanın tətbiqi ilə sahibkarların az məşğul olması və s. ilə əlaqədar  idi. Neft sənayeçiləri istehsalı azaldır və neftin qiymətini durmadan artırırdılar. Bir neçə il ərzində neft məhsullarının qiyməti 8 dəfə artırılmışdı. 1901-1913-cü illərdə Azərbaycanda neft hasilatı 33 %-dən çox azalmışdı.

Bu isə Rusiyanın dünya neft istehsalında birinciliyini itirməsinə səbəb olmuşdu.

Böhranın əlamətləri neft sənayesi ilə bərabər mexaniki istehsal, metallurgiya, ipək emalı sənayesi, pambıqtəmizləmə sənayesi, gön-dəri, şərab istehsalı, tütünçülük, balıqçılıq, duz istehsalı sahələrində də özünü göstərirdi. Böhranın iri şəhərlərin ticarət dövriyyəsinə mənfi təsir göstərməsinə baxmayaraq, bütövlükdə Azərbaycanda ticarətin həcmi artmışdı. Şəhərlərdə maliyyə-kredit və bank müəssisələri yaradılırdı. Ölkənin müxtəlif yerlərində 34 bank və bank şöbələri, 80-dən çox borc-əmanət kassaları var idi. Bakıdakı iri ticarət səhmdar banklarının sahibləri arasında H.Z.Tağıyev, M.Nağıyev başda olmaqla milli burjuaziyanın nümayəndələri təmsil olunmuşdular.

XX əsrin əvvəllərində Azərbaycanın kənd təsərrüfatının əsasını əkinçilik və maldarlıq təşkil edirdi. Birinci Dünya müharibəsi ərəfəsində 1,3 mln. desyatin əkin sahələrinin yarıdan çoxunda buğda, arpa və düyü əkilirdi. 1903-cü ildə Azərbaycanda 40 mln.puddan çox, 1913-cü ildə isə 60 mln. puda qədər taxıl istehsal olunmuşdu.

Bu dövrdə texniki bitkilər əkini xeyli genişlənmişdi. Onların içərisində pambıqçılıq xüsusi olaraq fərqlənirdi. 1900-1913-cü illərdə pambıq əkini sahələri 19 min desyatindən 105 min desyatinə çatmışdı. Cənubi Qafqazda pambıq əkilən sahələrin 70 %-dən çoxu Azərbaycanın payına düşürdü.

Azərbaycanın ipək sənayesinin əsasını təşkil edən baramaçılıqla 2200-dən çox kənd məşğul olurdu.1901-ci ildə ölkədə 182 min pud barama becərilmişdisə, 1914-cü ildə bu rəqəm 260 min pudu keçmişdi. Cənubi Qafqazda becərilən baramanın 81 %-i Azərbaycanın payına düşürdü. Tütünçülük ən çox Zaqatala dairəsində, Nuxa, Cavanşir, Şuşa, Quba və Şamaxı qəzalarında inkişaf etdirilirdi. 1900-1914-cü illərdə tütün yarpağı istehsalı 24,5 min puddan 46 min puda çatmışdı. Kənd təsərrüfatının inkişafında mühüm yer tütün üzümçülük və bağçılıqla əsasən Yelizavetpol quberniyasının Şuşa, Yelizavetpol, Qazax, Ərəş qəzalarında, Bakı quberniyasının Göyçay, Bakı, Şamaxı qəzalarında məşğul olurdular. 1901-1913-cü illərdə Azərbaycanda üzümlüklərin ümumi sahəsi 24 min desyatindən 29 min desyatinə çatmışdı. Həmin dövrdə üzüm istehsalı 3 mln. puddan 6 mln. puda qalxmışdı.

Maldarlığın əsas növləri qoyunçuluq, iri buynuzlu mal-qara və atçılıq idi. 1903-cü ildə Azərbaycanda 3 mln. baş qoyun, 1,5 mln.–dan çox iri buynuzlu mal-qara var idi. İri

mülkədar və qolçomaq təsərrüfatları yaradılmışdı. Maldarlıq təsərrüfatlarınn 12-13%-ni təşkil edən 5 minə qədər varlı maldarlıq təsərrüfatında bütün xırda buynuzlu heyvanların 60 %-i cəmləşmişdi. Lakin bu dövrdə ağır vergi və mükəlləfiyyətlər ödəyən kəndlilərin vəziyyətini çarizmin milli müətəmləkə siyasəti, daha da ağırlaşdırırdı.

Azərbaycanda kəndlilərin pay torpağının azlığına baxmayaraq, çarizmin müstəmləkəçilik və ruslaşdırma siyasəti nəticəsində Rusiyadan buraya köçürülən kəndlilər yerli kəndlilərin hesabına torpaqla təmin edilirdilər. 1901-ci il martın 18-də Nazirlər Komitəsi Rusiyadan Mil və Muğan düzlərinə 40 min nəfərədək kəndli köçürmək haqqında qərar vermişdi. Köçürmə siyasəti zorla həyata keçirilirdi. 1908-1910-cu illərdə Azərbaycana 3 mindən artıq kəndli ailəsi köçürülmüşdü. Köçürülmüş kəndlilər yerli kəndlilərin torpaqları hesabına torpaqla təmin edilirdilər. 1911-ci ildə Muğana köçürülən min nəfər rus kəndli ailəsinə 5 min desyatin torpaq verilmişdi. 1912-ci ildə Bakı quberniyasında 60, Yelizavetpol quberniyasında isə 29 rus kəndi salınmışdı.

Çarizmin köçürmə siyasəti yerli əhalinin torpaq hüququnun kobudcasına pozulması yolu ilə həyata keçirilmişdi. Nəticədə köçürülən rus əhalisi ilə yerli azərbaycanlılar arasında düşmənçilik münasibəti yaranırdı. Xalqın etiraz səsləri silah gücünə susdurulurdu. Köçürmə siyasəti nəticəsində aztorpaqlı və torpaqsız kəndlilərin sayı ildən-ilə artırdı.

Çar hököməti 1912-ci il dekabrın 20-də "Cənubi Qafqaz quberniyalarında torpaqların məcburi sürətdə satın alınması haqqında" qanun qəbul etdi. Qanuna görə Azərbaycanda sahibkar kəndliləri 1913-cü il yanvarın 1-dən mükəlləfiyyət daşımaqdan azad olunurdular. Kəndlilər həmin vaxtdan onların xüsusi mülkiyyəti elan edilmiş pay torpağını məcburi şəkildə satın almalı idilər. İcarəyə verilən torpaqlar mülkədarın mülkiyyətində qalmalı idi. Kəndli çəmən, otlaq və meşə sahələrini satın ala bilməzdi, onlardan əvvəllərdə olduğu kimi, torpaq sahibinin razılığı ilə istifadə edə bilərdi. Mülkədar torpaq üçün əvəz haqqını dövlət xəzinəsindən alır, dövlət xəzinəsi isə torpaq pulunu müəyyən müddət ərzində kəndlilərdən toplamalı idi.

1912-ci il aqrar qanunu Zaqatala dairəsi kəndlilərinə şamil edilmədi. Kəndlilərin haqlı narazılığını nəzərə alan hökumət 1913-cü il iyulun 7-də "Dağıstan və Zaqatala dairəsində feodal asılı münasibətlərin ləğv olunması haqqında" qanun qəbul etdi.

Qanuna görə ləğv edilmiş mükəlləfiyyətlər əvəzində bəylərə və keşkəl sahiblərinə birdəfəlik mükafat olaraq 284 min manat verildi. Kəndlilərin əvəzində dövlətin sahibkarlara verdiyi bu borcu onlar 20 il ərzində xəzinəyə qaytarmalı idilər.

1912-1913-cü illərin aqrar qanunları sahibkar kəndlilərini pay torpaqlarının xüsusi mülkiyyətçisinə çevirməsinə, "müvəqqəti mükəlləfiyyətli" münasibətlərdən azad etməsinə baxmayaraq, onları uzun müddətə dövlət xəzinəsinin borclusu etmişdi. Bu qanunlar Azərbaycan kəndində kapitalist münasibətlərinin inkişafını və ictimai təbəqələşməni sürətləndirdi.

XX əsrin əvvəllərində kapitalist münasibətlərinin inkişafı Şimali Azərbaycanda əhalinin sosial tərkibinə ciddi təsir göstərdi. Şəhərlərdə sənaye və ticarət burjuaziyasının, xüsusilə də xırda burjuaziyanın xüsusi çəkisi artırdı. Şəhər əhalisinin nisbətən az saylı təbəqələrini bəylər, ziyalılar və ruhanilər təşkil edirdilər.

Bakının milyonçuları, sərmayədarları, neftxudaları, iri tacirləri Azərbaycanın sosial-siyasi həyatında mühüm rol oynasalar da, əsas ağırlıq kənd əhalisinin üzərinə düşürdü. Azərbaycan əhalisinin 76%-i kənd təsərrüfatı ilə məşğul olurdu. Kənddə sürətlənən sosial təbəqələşmə kəndlilərin arasından kənd varlılarının və qolçomaqların ayrılmasına səbəb olurdu. Çarizmin milli müştəmləkəçilik və köçürmə siyasəti, ağır vergilər, məmur özbaşınalıqları, torpaqsızlıq nəticəsində yoxsul kəndlilərin dolanışıq üçün şəhərə qetməsi – kəsbkarlıq kəndlilərin ictimai təbəqələşməsi prosesini daha sürətləndirdi. Bir parça çörək üçün şəhərə axışan kəsbkarlar əvvəllər mövsümi işçi kimi qışda neft sənayesində ən ağır işlərdə çalışır, yaz-yay aylarında kəndə qayıdıb əkin-biçinlə məşğul olurdular. Sonralar kəsbkarların bir çoxu şəhərdə daimi yaşamağa başlayır, Bakı proletariatının sıralarına qoşulurdular.

## *1. Milli-demokratik hərəkat və siyasi mübarizə*

XX əsrin əvvvəllərində iqtisadi böhran nəticəsində müəssisələrin bağlanması, işsizliyin artması, iş və məişət şəraitinin dözülməz olması fəhlələrin siyasi cəhətdən oyanmasına və inqilabi hərəkatın başlanmasına zəmin yaradırdı. 1901-ci ilin mart ayında Rusiya Sosial Demokratik Fəhlə Partiyasının (RSDFP) Bakı Komitəsi yaradıldı.

Bakıda fəhlə hərəkatına rəhbərliyi ələ keçirməyə çalışan Bakı Komitəsi Leninçi "İskra" qəzetini və digər inqilabi ədəbiyyatları çap etmək üçün "Nina" gizli mətbəəsini təşkil etdi.

1902-1903-cü illərdə Bakının sənaye müəssisələrində baş verən tətillər, 1903-cü ilin iyul ayında baş verən siyasi nümayiş və ümumi tətil Azərbaycanda fəhlə hərəkatının yeni mərhələyə qalxdığını göstərirdi.

1904-cü il dekabrın 13-də başlayan Bakı fəhlələrinin ümumi tətili Rusiya proletariatının inqilabi mübarizə tarixində ilk dəfə neft sənayeçiləri ilə fəhlələr arasında dekabrın 30-da bağlanan kollektiv müqavilə ilə başa çatmışdı. Fəhlələr bu müqaviləni "Mazut Konstitusiyası" adlandırmışdılar. Tətil dekabrın 31-də fəhlələrin qələbəsi ilə başa çatdı.

1905-ci il yanvarın 9-da Peterburqda nümayiş iştirakçılarının qülləboran edilməsi tarixə "Qanlı bazar" günü hadisəsi kimi daxil oldu. XX əsrin birinci xalq inqilabı – 1905-1907-ci illər burjua-demokratik inqilabi başlandı.

"Qanlı bazar" faciəsi Bakıda çox böyük əks-səda doğurdu. Təkcə yanvar ayında Bakıda və Bakı quberniyası ərazisində 25 müəssisənin fəhləsi tətil etdi. Bakı müəssisələrində başlanan tətilə Azərbaycanın bir çox bölgələrinin işçiləri, o cümlədən Yelizavetpol dəmiryol stansiyasının, Gədəbəy mis mədənlərinin, Ləki yağ zavodunun, Nuxa və Şuşa ipək emalı fabriklərinin fəhlələri də qoşuldular.

Azərbaycanda inqilabi hərəkatın yüksəlişindən narahat olan çarizm Cənubi Qafqazda erməni-müsəlman qırğını törətdi. 1905-ci il fevralın 6-dan 9-dək Bakıda, fevralın 20-21-də İrəvanda, may ayında Naxçıvanda, avqustun 16-21-də Şuşada, 20-26-da yenidən Bakıda erməni daşnakları çarizmin havadarlığı ilə azərbaycanlılara qarşı soyqırımı törətdilər. 1905-1906-cı illərdə çarizmin Azərbaycanda törətdiyi milli qırğın siyasətində "Daşqaksütyun" partiyası və erməni millətçiləri həlledici rol oynayırdılar. Milli qırğınlar nəticəsində 10 minədək adam qətlə yetirilmiş, 158 müsəlman kəndi dağılmış, minlərlə evlər yandırılmışdı.

Çarizm milli qırğınlarla bərabər inzibati tədbirlərə də əl atırdı. Çar hökuməti Azərbaycanda repressiyaları gücləndirmək üçün 1905-ci il fevralın əvvəllərində Bakıda fövqəladə vəziyyət elan etdi. Çar II Nikolay 1905-ci il fevralın 26-da "Qafqazda tezliklə sülh və sakitlik yaratmaq üçün" yenidən Qafqaz canişinliyini bərpa etdi. Qatı şovinist və

ermənipərəst Vorontsov-Daşkov canişin təyin edildi. Bakıda hərbi qubernator vəzifəsi təsis edildi. Ermənilərə havadarlıq edən, türklərə nifrətlə yanaşan Qafqaz canişini Rusiya imperiyasının “Parcala, hökm sür!” siyasətini həyata keçirir, rus qoşunlarına və kazaklara “tatarlara” (azərbaycanlılara) atəş açmaq əmri verirdi.

Çarizmin himayəçilik siyasətindən bəhrələnən ermənilər Azərbaycan iqtisadiyyatının inkişafından azərbaycanlılara nisbətən 10 dəfədən çox mənfəət əldə etmişdilər. Azərbaycanda fəaliyyət göstərən 167 neft şirkətindən əksəriyyəti xırda müəssisələr olmaqla cəmi 49 şirkət azərbaycanlılara məxsus olduğu halda, zəngin erməni ailələri 55 orta və iri şirkətin sahibləri idilər. Şərabçılıq, balıq sənayesi, tütün istehsalı kimi gəlirli sahələr də ermənilərin əlində idi. Dünyanın tanınmış iş mərkəzlərindən birinə çevrilən Bakıda 50 minə yaxın erməni toplanmışdı. Erməni tacirləri Bakının iqtisadi həyatında əsas yerlərdən birini tuturdular. Bu cür iqtisadi uyğunsuzluq, hökümətin hər zaman erməniləri himayə etməsi ermənilərlə azərbaycanlılar arasında onsuz da gərgin olan münasibətləri daha da pisləşdirirdi.

Birinci rus inqilabının yüksəlişindən qorxuya düşən çar II Nikolay1905-ci il dekabrın 11-də Dumaya seçkilər keçirilməsi haqqında fərman imzaladı. Həmin fərmana uyğun olaraq 1906-cı il mayın 31-də Azərbaycanda I Dumaya seçkilər keçirildi. Görkəmli ictimai-siyasi xadimlər olan Əli Mərdan bəy Topçubaşov, İsmayıl xan Ziyadxanov, Məmmədtağı Əliyev, Əsədulla bəy Muradxanov, Əbdürrəhim bəy Haqverdiyev Dumaya deputat seçildilər. Rusiya müsəlmanlarından seçilən 46 deputat Dumada Müsəlman fraksiyasında birləşdi. Ə.M.Topçubaşov fraksiyanın sədri seçildi. Müsəlman fraksiyası Dumada Kadet partiyasının mövqeyində dayanmışdı. Lakin çar hökümətі I Dumanı 1906-cı il iyulun 7-də buraxdı.

1906-cı ilin sonu, 1907-ci ilin əvvəllərində Azərbaycanda II Dumaya seçkilər keçirildi. Mülkədar və burjua ziyalılarının ləyaqətli nümayəndələri Fətəli xan Xoyski, Məmmədağa Şahtaxtinski, Xəlil bəy Xasməmmədov, İsmayıl Tağıyev, Mustafa Mahmudov və Zeynal Zeynalov II Dumaya deputat seçildilər. II Duma 1907-ci il fevralın 20-də ilk iclasına başladı. Müsəlman deputatlar yenə də öz fraksiyalarını yaratdılar. Fraksiyanın hazırladığı on bir bölmədən ibarət proqramda türk xalqlarının bütün sosial-iqtisadi, siyasi və mədəni problemləri öz əksini tapmışdı. Lakin II Dumanın da fəaliyyəti

çar hökümətini razı salmadı. 1907-ci il iyunun 3-də II Duma buraxıldı və III Dumaya seçkilər keçirilməsi haqqında çarın fərmanı verildi.

Yeni seçki qanunu son dərəcə mürtəce və müstəmləkəçi xarakterə malik idi. Qafqaz, Mərkəzi Asiya və Sibir xalqları siyasi cəhətdən qeyri-yetkin xalqlar hesab edilərək seçki hüququndan məhrum edildilər. Cənubi Qafqaz müsəlmanlarından III Dumaya cəmi bir nəfər – Xəlil bəy Xasməmmədov seçildi. Dumada tək olmasına baxmayaraq X.Xasməmmədov öz üzərinə düşən vəzifələri çox böyük məsuliyyət və ləyaqətlə yerinə yetirirdi.

1912-ci ilin sentyabr-oktyabr aylarında Azərbaycanda IV Dövlət Dumasına deputat seçkiləri keçirildi. Bütün Cənubi Qafqaz müsəlmanlarından yeganə deputat hüquqşunas Məmmədyusif Cəfərov seçildi. O da öz sələflərinin yolunu ləyaqətlə davam etdirdi.

XX əsrin əvvəllərində Rusiyada baş verən siyasi hadisələr (rus-yapon müharibəsi, 1905-1907-ci illər inqilabi, erməni-azərbaycanlı münaqişəsi və s.) Azərbaycan xalqının milli mənlik şüurunun oyanmasına, milli özünüdərkin və milli təfəkkürün inkişafına mühüm təsir göstərirdi.

Bu dövrdə milli hərəkatın başlanmasına iki əsas amil təsir göstərirdi: 1) Milli burjuaziyanın dəstəyi ilə müxtəlif təhsil ocaqlarında təhsil alaraq vətənə qayıdan Azərbaycan gəncləri milli demokratik hərəkatın yaranması və inkişafında böyük rol oynamada başladılar. İxtisasa yiyələnməklə bərabər qabaqçıl Avropa ideologiyası ilə də tanış olan Azərbaycan ziyalıları milli özünüdərketmə, mənəvi dəyərlər, xalqın tarixi, etnik mənşəyi ilə bağlı məsələlərin araşdırılmasının zəruriliyini anladı; 2) Çarizmin türk-müsəlman xalqlarına qarşı çevrilmiş milli müstəmləkə siyasəti nəticəsində milli hərəkatda “Milliyət və hürriyət”, “Məşrutə və müsavat” ideyaları geniş vüsət aldı. M.Ə.Rəsulzadənin dediyi kimi, “Millət inanmağa başladı ki, istiqlal xaricində onun üçün əlavə Azərbaycan yoxdur”.

O dövrün milli ziyalılarımızın qabaqçıl numayəndələrindən H.Zərdabi, Ə.Hüseynzadə, Ə.Ağaoğlu, N.Nərimanov, C.Məmmədquluzadə, H.Cavid, Ü.Hacıbəyov, M.Ə.Sabir, Ə.M.Topçubaşov, F.Köçərli, M.Ə.Rəsulzadə və b. milli mətbuatda çıxış edərək xalqın milli təfəkkürünün formalaşmasında mühüm rol oynadılar. Bu işdə

H.Zərdabinin və M.Ə.Rəsulzadənin millətçilik və dövlətçilik, C.Məmmədquluzadənin demokrtizm və azərbaycançılıq ideyaları misilsiz rol oynadı. Türk dünyasının görkəmli ideoloqları İ.Qaspıralı, Ə.Hüseynzadə, Y.Akçura oğlu, Ə.Ağaoğlunun tükçülüyə dair fikirlərində obyektiv olaraq Azərbaycanın milli müstəqilliyinin ümumtürk azadlığının tərkib hissəsi olduğu ideyası öz əksini tapırdı.

Azərbaycanın qabaqçıl ziyalıları imperiyanın müstəmləkə əsarətindən azad olmaq məqsədilə ilk gizli siyasi təşkilatların yaradılmasını vacib bilirdilər. 1902-ci ildə Bakıda M.Ə.Rəsulzadənin rəhbərliyi ilə "Müsəlman gənclik təşkilatı" yaradıldı. Az sonra həmin təşkilat "müsəlman demokratik "Musavat" cəmiyyəti"nə çevrildi.

Azərbaycanlı fəhlələr arasında milli demokratik ideyaları yaymaq məqsədilə M.Ə.Rəsulzadə, M.H. Mövsümov, M.H.Hacınskinin təşəbbüsü ilə 1904-cü ilin oktyabr ayında "Müsəlman sosial-demokrat "Hümmət" təşkilatı" yaradıldı. "Hümmət" təşkilatı RSDFP Bakı Komitəsinin nəzdində fəaliyyət göstərirdi. 1904-1905-ci illərdə "Hümmət" təşkilatının eyni adlı qəzeti nəşr etdirildi. 1906-1907-ci illərdə təşkilatın "Təkamül" və "Yoldaş" qəzetləri nəşr edilmişdi. Təşkilatın işində N.Nərimanov, M.Əzizbəyov, Ə.Axundov və b. fəal iştirak edirdilər.

1905-1906-cı illərdə erməni millətçilərinin azərbaycanlılara qarşı törətdikləri milli qırğınlar geniş vüzət aldığı üçün milli demokratik fikirli ziyalılar siyasi partiyalar və müdafiə cəmiyyətləri yaratmağa başladılar. Bu məqsədlə Əhməd bəy Ağaoğlu 1906-cı ildə "Difai" ("Müdafiə") partiyasını yaratdı. Partiyanın Mərkəzi Komitəsi Bakıda yerləşirdi. Partiyanın Gəncədə, Şuşada, Ağdamda, Bərdədə, Yevlaxda, Tərtərdə, Naxçıvanda, Qarsda, Vladiqafqazda və başqa yerlərdə şöbələri yaradılmışdı. Partiyanın "Qarabağ birlik məclisi" adlı şöbəsi Şüşada yerləşirdi. Kərim bəy Mehmandarovun sədrlik etdiyi şöbənin 400 nəfərlik suvaridən ibarət döyüş drujinası var idi. "Difai" partiyasının Gəncə şöbəsinin sədri Ələkbər bəy Rəfibəyli öz qüvvələrini qacaq Dəli Alının dəstəsi ilə birləşdirərək Gəncəbasarda erməni daşnaklarına divan tuturdu. Çar hakim dairələri "Difai" təşkilatından qorxur, onu "Müsəlman döyüş partiyası" adlandırırdılar.

1906-cı ilin avqust ayında Yelizavetpol şəhərində "Qeyrət" təşkilatı yaradılmışdı. Ş.Rüstəmbəyov tərəfindən əsası qoyulan "Qeyrət" təşkilatı öz qarşısına erməni

təcavüzünə qarşı mübarizə aparmaq, Azərbaycan xalqının namusunu, qeyrətini, milli mənafeyini qorumaq məqsədini qoymuşdu. “Qeyrət” təşkilatının üzvləri hər həftə Yelizavetpor şəhərinin baş məscidində iclaslar keçirir, xalq arasında tədbiğat aparır, onların müdafiəsinin möhkəmləndirilməsinə çalışır və bu məqsədlə imkanlı adamlardan ianə toplayırdılar.

1907-ci ilin may ayında daha bir müsəlman partiyası olan “Müdafiə” təşkilatı yaradıldı. “Müdafiə” partiyasının rəhbəri korpus topoqrafı, podpolkovnik İbrahim ağa Vəkilov olmuşdur. Yelizavetpol quberniyasının qərb hissəsində və Tiflisə yaxın qəzalarda, əsasən Borcalıda fəaliyyət göstərən “Müdafiə” partiyası Azərbaycan milli hərəkatının inkişafında mühüm rol oynamışdır. Partiyanın amalı Qafqaz müsəlmanlarının ittihadi, ümumi düşmənə qarşı mübarizə birliyi, azərbaycan xalqının azadlığı, maarif və mədəniyyətin inkişafı, nadanlığa, cəhalətə və geriliyə qarşı mübarizə motivlərinə soykənirdi.

“Difai”, “Qeyrət” və “Müdafiə” təşkilatılarının başlıca məqsədi Azərbaycan xalqının erməni daşnakları və millətçiləri tərəfindən soyqırımının qarşısını almaq, tökülən günahsız qanların dayandırılması olmuşdur. Bu təşkilatların fəaliyyətləri nəticəsində azğın erməni millətçilərinin quduz hərəkətlərinin qarşısı bir qədər alınmış, milli qırğın müəyyən dərəcədə dayandırılmışdır.

1905-1907-ci illər inqilabı türk xalqlarının milli mübarizəsinin yüksəlişinə yeni təkan verdi. Rusiya müsəlmanlarının birgə fəaliyyət istiqamətində mübarizəsi genişlənməkdə idi. Bunun nəticəsi olaraq 1905-ci il avqustun 15-də Nijni-Novqorod şəhərində Ümumrusiya müsəlmanlarının birinci qurultayı keçirildi. Qurultay “İttifaqül-müslümin” adlı Ümumrusiya müsəlman ittifaqını yaratmağı qərara aldı. Rusiya müsəlmanlarının ikinci qurultayı 1906-cı il yanvarın 13-dən 23-dək Peterburq şəhərində qeyri-leqal şəraitdə keçirildi. Qurultayda “Müsəlman İttifaqı”nın Nizamnaməsi və Proqramı müzakirə edilərək qəbul edildi. Proqramda Ümumrüsiya türklərini birləşdirmək və çarizmə qarşı vahid cəbhədə mübarizə aparmaq vəzifəsi irəli sürüldü.

1906-cı il avqustun 16-23-də Nijni-Novqorodda Ümumrusiya müsəlmanlarının üçüncü qurultayı keçirildi. Qurultay “Müsəlman ittifaqı”na rəhbərlik etmək üçün daimi yeri Bakı şəhəri olmaqla 15 nəfərdən ibarət Mərkəzi Komitə yaratmağı qərara aldı. MK-

nin nəzdində üç nəfərlik büro yaradıldı. Onun tərkibinə Ə.M.Topçubaşov (sədr), A.Aponayev (xəzinədar) və Ə.İbrahimov daxil edildilər.

1905-ci il 17 oktyabr Manifesti çar II Nikolay tərəfindən elan edildikdən sonra bir qrup Bakı liberalı kadetlərin Bakı şöbəsi ilə sıx əlaqədə olan Konstitusiyalı Müsəlman Partiyası yaratdı. Partiyanın Proqramında Cənubi Qafqazın öz məclisi (Seym) və milli idarəçilik qurumları olan müstəqil bir bölgəyə çevrilməsi öz əksini tapmışdı.

Azərbaycan xalqının milli-azadlıq mübarizəsində mühüm rol oynamış "Müsavat" ("Bərabərlik") partiyası 1911-ci ilin oktyabr ayında əvvəllər M.Ə.Rəsulzadə ilə "Hummət" qrupunda çalışmış Məhəmməd Əli Rəsulzadə, Abbasqulu Kazımzadə və Tağı Nağı oğlu tərəfindən yaradılmışdır. Partiyanın adı müsəlmanların ruslarla bərabər hüquqlara malik olmaq, bütün islam dünyasında müstəqilliyə qovuşmaq arzusunu özündə əks etdiridi.

1913-cü ildə Romanovlar sülaləsinin 300 illiyi münasibətilə çar hökümətinin verdiyi əhv- ümumidən istifadə edən M.Ə.Rəsulzadə Azərbaycana qayıtdı "Müsavat" partiyasına daxil olaraq onun lideri oldu. Yarandığı ilk dövrlərdə "Müsavat" partiyası qeyri-leqal fəaliyyət göstərməyə məcbur olmuşdu. Üzvlərinin təhlükəsizliyini təmin etmək məqsədilə partiya üzvləri üç nəfərlik dərnəklərdə birləşmişdilər.

"Müsavat"ın 1912-ci ildə qəbul etdiyi birinci Proqramı islami mahiyyətdə idi. Burada müsəlman xalqlarının birliyi, dövlət müstəqilliyi və dövlətçiliyinin bərpasına maddi və mənəvi yardım göstərmək, müsəlmanların birliyi və tərəqqisinə çalışan partiyalarla əlaqə yaratmaq vəzifələri irəli sürülmüşdü. M.Ə.Rəsulzadə öz əsərlərində partiyanın ideologiyasına ciddi təsir göstərir, onun ideya istiqamətini "hümmətçilikdən millətçiliyə", "islamçılıqdan türkçülüyə" doğru yeniləşdirməyə nail oldu. O, Əli bəy Hüseynzadənin "türkləşmək islamlaşmaq müasirləşmək" ideyasını başlıca istiqamət kimi irəli sürdü.

M.Ə.Rəsulzadə 1915-ci il oktyabrın 2-də "Müsavat" partiyasının oqranı olan "Açıq söz" qəzetini nəşr etdirməyə başladı. M.Ə.Rəsulzadə və partiya üzvlərinin çap etdirdikləri məqalələr Azərbaycanlılar arasında türkçülük və millətçilik ideyalarının yayılmasında mühüm rol oynadı.

“Müsavat” partiyasının yaranması ilə Azərbaycan milli hərəkatı özünün yeni inkişaf mərhələsinə qədəm qoydu. Milli-azadlıq hərəkatının yüksəlişində, xalqımızın milli mədəni bir varlıq olaraq dünya millətlərinə tanıdılmasında, Azərbaycan Cümhuriyyətinin yaradılmasında “Musavat” partiyasının müstəsna xidmətləri olmuşdur.

### *2. Azərbaycan Birinci dünya müharibəsi illərində*

1914-cü il avqustun 1-də başlayan I Dünya müharibəsi dünyanı yenidən bölüşdürmək uğrunda mübarizə aparan iki təcavüzkar hərbi-siyasi bloka – Antanta və Dördlər İttifaqına daxil olan dövlətlər arasında aparılan imperialist müharibəsi idi.

Müharibədə iştirak edən hər iki hərbi-siyasi bloka daxil olan dövlətlərin xüsusi işğalçılıq planları var idi. Həmin hərbi planlarda Qafqaz, xüsusilə də əlverişli coğrafi mövqeyə, zəngin yeraltı və yerüstü təbii sərvətlərə malik olan Azərbaycan mühüm yer tuturdu. XX sərin ən mühüm strateji məhsulu olan neft uğrunda və Azərbaycan neft sənayesində hakim mövqe uğrunda mübarizə edən hər bir iri kapitalist dövlətinin Azərbaycanla bağlı planları var idi. Müharibə ərəfəsində Bakı nefti uğrunda kəskinləşən mübarizədə ingilis və alman inzisarçı birlikləri arasında rəqabət daha da güclənmişdi. Bu dövrdə Azərbaycan neft sənayesinə qoyulan 112 milyon manat xarici kapitalın 54 milyonu ingilislərə, 43 milyonu fransızlara və cəmi 10 milyonu almanlara məxsus idi.

Yaxın və Orta Şərqdə ingilislərin mövqelərinə zərbə vurmağa Rusiyadan Qafqazı qoparıb almağa çalışan Almaniya Bakı neftini ələ keçirmək istəyirdi. Almaniyanın əsas məqsədi Qafqazın ən zəngin regionu olan Azərbaycanı Rusiyadan ayırıb müharibə edən tərəflər arasında bufer dövlətə çevirmək və Bakı neftinə nəzarəti ələ keçirmək idi. Almaniya öz işğalçılıq planlarında Türkiyədən bir müttəfiq kimi istifadə edirdi.

Almaniya Türkiyənin köməyi ilə Qafqazı və On Asiyanı nüfuz dairəsində saxlamaq, Hindistana və Əfqanistana yol açmaqla Rusiyanın və İngiltərənin mövqelərini sarsıtmaq niyyətində idi. Əvəzində Türkiyəyə Qafqaza sahib olmaq üçün hər cür kömək göstərəcəyini vəd edirdi.

İngiltərə isə Bakı neftini ələ keçirməklə alman kapitalının Bakı neft sənayesinə nüfuz etməsinə mane olmağa, ABŞ-ın dünya neft bazarında nüfuzunu zəiflətməyə çalışırdı.

Rusiya da öz növbəsində Bakı neftindən imtina etmək fikrində deyildi. Üztəlik Rusiyanın bu regionda məqsədi boğazlara sahib olmaq, İstanbulu ələ keçirmək, Türkiyəni bölüşdürməklə onun şərqində Rusiyadan vassal asılılığında olan Ermənistan dövləti yaratmaq idi.

Türkiyənin əsas məqsədlərindən biri Qafqazda öz təsirini gücləndirmək, Rusiya imperiyasında müstəmləkə əsarətində yaşayan müsəlman türk xalqlarını çarizmin müstəmləkə əsarətindən qurtarmaq, Rusiya ilə Türkiyə arasında bufer rolunu oynayan müsəlman dövləti yaratmaq idi.

1914-cü il oktyabrın 31-də Qafqaz cəbhəsində hərbi əməliyyatlar başlandı. Qafqaz cəbhəsi Batumdan Cənubi Azərbaycandakı Urmiya gölünədək uzanırdı. Türk qoşunları Qars-Batun istiqamətində hücuma keçdilər. Noyabrın 17-dək davam edən ilk döyüşlərdə Türk ordusu qalib gəldi. Bundan ruhlanan Ənvər paşa Sarıqamış istiqamətində hücümə keçərək Karsı tutmağı qərara aldı. Sarıqamış əməliyyatı 1914-cü il dekabrın 4-dən 1915-ci il yanvarın 18-nə kimi davam etdi. Lakin ağır qış şəraiti, əsgərlərin hərbi sursat və ərzaq çatışmamazlığı, hərbi əməliyyat planında ciddi qüsurların olması, rus ordusunun canlı qüvvəsinin və hərbi texnikasının üstünlüyü və s. səbəblərə görə Sarıqamış əməliyyatında Türk ordusu ağır itki verərək məğlub oldu. Rus ordusu Təbrizi ələ keçirdi və türkləri Cənubi Azərbaycandan sıxışdırıb çıxartdı. Müharibənin sonunadək Qafqaz cəbhəsində elə bir ciddi dəyişiklik baş vermədi.

Çar Rusiyası əsarət altına aldığı müsəlman türk xalqlarını orluya çağırmır, digər sahələrdə olduğu kimi, hərbi sahədə də onların inkişafına mane olurdu. Azərbaycandan rus ordusuna xidmətə yalnız ali müsəlman silkinə məxsus olanlar qəbul edilirdilər. Hərbi məktəblərdə təhsil alan azərbaycanlılar orduda hərbi xidməti davam etdirirdilər. Birinci Dünya müharibəsi illərində rus ordusu sıralarında 200 nəfərdən çox azərbaycanlı zabit qulluq edirdi. Rus Ordusunun məşhur generalları Səməd bəy Mehmandarov, Əliağa Şixlinski, Hüseynxan Naxçıvanski, İbrahim ağa Vəkilov və başqalarının hərbi xadim kimi istedadı müharibə dövründə daha da parladı. General-leytenant Əliağa Şıxlinski “Rus artilleriyasının allahı” kimi yüksək ada layiq görülmüşdü. Polkovnik Qayib Vəkilov, rotmistr Teymur Novruzov “Müqəddəs Georqi” ordeninin dörd dərəcəsi ilə təltif edilmişdilər. İlk azərbaycanlı təyyarəçi poruçik Fərrux ağa Qayıbov göstərdiyi igidliyə

görə  (havada düşmənin üç təyyarəsini məhv etmişdi) ölümündən sonra “Müqəddəs Georqi” ordeninə layiq görülmüşdü.

Müharibə cəbhəyani bölgəyə çevrilmiş Azərbaycanın iqtisadiyyatına çox ağır təsir göstərmişdi. Neft hasilatı aşağı düşmüş, qazma işləri azalmış, dəmir yolu və dəniz gəmiçiliyi daşımanın öhdəsindən gələ bilmirdi. Müharibə başlananda Azərbaycanda 431 milyon pud neft hasil edilmişdisə, 1917-ci ildə bu rəqəm 402 milyon puda enmişdi.

Müharibənin törətdiyi çətinliklər təsərrüfatın digər sahələrində də özünü göstərirdi. Dağ-mədən, ipəkçilik və başqa sənaye sahələrində də gerilik əmələ gəlmişdi. Gədəbəydə mis çıxarılması 1913-cü ildəki 1,8 milyon puddan 1915-ci ildə 103 min puda, mis istehsalı isə həmin dövrdə 49,7 min puddan 2,5 min puda enmişdi. Şuşa və Nuxada fəaliyyət göstərən ipək emalı fabriklərinin yarıdan çoxu işləmirdi. Pambıq parça istehsalı da kəskin surətdə azalmışdı, 1917-ci ildə Azərbaycanda tütün istehsalı müharibədən əvvəlki səviyyənin 30 %-ni təşkil edirdi. Balıqçılıq sənayesində də istehsal müvafiq olaraq 11,6 min puddan 7,2 min puda enmişdi.

Müharibə illərində kənd təsərrüfatı da böhran keçirirdi. Əkinçilik və maldarlıq xeyli ixtisara düşdü, pambıq əkilən sahələr əsaslı surətdə azaldı, bağçılıq və üzümçülük tənəzzülə uğradı. 1915-ci il iyunun 15-də çar höküməti “özgə xalqlar”dan olan 18 yaşından 43 yaşadək olan kişilərin müharibə ilə əlaqədar işlərə səfərbərliyə  alınması barədə fərman verdi. Arxa cəbhədə işləmək üçün səfərbərliyə alınan azərbaycanlılar əsasən cəbhəyə xidmət edən yardımçı işlərdə çalışırdılar. Çarın fərmanına əsasən 50 mindən artıq azərbaycanlının səfərbərliyə alınması kəndlərdə işçi qüvvəsinin sayını xeyli azaltmışdı. Müharibə dövründə Azərbaycan kəndinin işçi qüvvəsindən, qoşqu heyvanlarından, əmək alətlərindən, toxumdan, ərzaqdan məhrum edilməsi, Rusiya və xarici bazarlarla əlaqələrin kəsilməsi Azərbaycan kəndində ciddi təsərrüfat böhranına səbəb oldu. Taxıl əkinləri 1914-1915-ci illər ərzində 43 % azaldı, dənli bitkilər əkilən sahələr Yelizavetpol quberniyasında 1913-cü ilə nisbətən 1916-cı ildə 70 %, Şuşa qəzasında isə 80 % azaldı. Taxıl istehsalı müharibədən əvvəlki dövrün 60 %-nə enmişdi. Davarların və iri buynuzlu mal-qaranın sayı ayrı-ayrılıqda yarım milyon baş azalmışdı. Atların sayı 200 min başdan 81 min başa enmişdi.

Müharibə illərində ərzaq məhsullarının qiyməti dəfələrlə artmışdı. Zəruri ərzaq məhsullarının: çörəyin, ətin, yağın, südün, düyünün və s. qiymətləri 300-500% artmışdı. 1914-cü ilə nisbətən 1916-cı ildə çörəyin qiyməti 226 %, 1917-ci ildə isə 300 % artmışdı. Qaçqınların və əsgərlərin hesabına Bakı şəhərində əhalinin sayı 70 min nəfər artmışdı. Ərzaq böhranı şəraitində əhalinin axını burada vəziyyəti daha da gərginləşdirir, xalqın narazılığını artırırdı.

1916-cı ilin fevralında Bakıda qadınların aclığa, bahalığa, möhtəkirliyə qarşı kütləvi etiraz aksiyası baş verdi. Fevralın 14-16-da minlərlə qadın küçələrə çıxaraq, mağazaları, anbarları, ticarət köşklərini yandırdı və dağıtdı. İki gün ərzində polislə toqquşma nəticəsində 64 adam həlak oldu, şəhərə 3 milyon rubl dəyərində ziyan dəydi. Qadınların üsyanını yatırmaq üçün hökümət Bakıya Tiflis, Port-Petroviç, Dərbənd, Yelizavetpol və s. şəhərlərdən yüzlərlə polis, atlı kazak, artilleriya gətirməyə məcbur oldu. Xalqın narazılığı getdikcə artmaqda davam edir, ölkədə inqilabi şərait yetişirdi.

### 3. Mədəniyyətin inkişafı

Çarizmin milli müstəmləkə siyasəti maarifin inkişafında özünü daha aydın göstərdi. Bu dövrdə Bakı şəhərində azərbaycanlı əhalisinin yalnız 19,3 % savadlı idi. Savadsızlığın başlıca səbəbi isə ana dilində məktəblər açılmasına icazə verilməməsi və təhsilin pullu olması idi. Azərbaycan burjuaziyasının Dövlət Dumasında olan nümayəndələrinin məktəb açmaq tələbləri əsasən eşidilməz qalırdı. Lakin 1905-1907-ci illər inqilabından sonra çar höküməti maarif sahəsində də bəzi güzəştlərə getməyə məcbur oldu.

Bu dövrdə Azərbacan demokratik ictimaiyyəti "rus-tatar" məktəbləri şəbəkəsini genişləndirmək uğrunda mübarizə aparırdı. Onlar eyni zamanda çarizmin bu məktəbləri ruslaşdırma siyasətinə qarşı da çıxış edirdilər. Azərbaycanda mədəniyyət və təhsilin inkişafında "Nicat", "Nəşri-maarif" kimi cəmiyyətlər mühüm rol oynadı.

Sahibkarlar, ziyalılar, ictimai və din xadimlərindən ibarət böyük bir qrupu özündə birləşdirən və H.Z.Tağıyevin rəhbərlik etdiyi "Nəşri-maarif" cəmiyyəti məktəb şagirdlərinə maddi yardım göstərməklə yanaşı özü də təhsil ocaqlarının yaradılmasında

iştirak edirdi. 1915-ci ildə cəmiyyətin açdığı 15 xalq məktəblərində 900 şagird təhsil alırdı.

"Nicat" cəmiyyətinin qurucuları isə Ə.Ağaoğlu, Ə.Axundov, M.Hacınski, kimi qabaqçıl Azərbaycan ziyalıları idi.

Azərbaycan demokratik ziyalıları Azərbaycan qadınlarının da savadlanması istiqamətində fəal iş görürdü. 1901-ci il oktyabrın 1-də Azərbaycan milli burjuaziyasının lideri və Azərbaycan maarifçiliyi tarixində də özünəməxsus yeri olan H.Z.Tağıyev öz hesabına "Bakı rus-müsəlman qadın məktəbi" açmışdı. Bu, XX əsr Azərbaycan mədəniyyətində mühüm tarixi hadisə idi. Bunun ardınca 1902-ci ildə Gəncədə qadın məktəbi, daha sonra Ağdamda, Qazax qəzasının Salahlı kəndində, Göyçay qəzasının Zəyəm kəndində, Şuşada, Şamaxıda və b. yerlərdə qadın məktəbləri açıldı. Bu məktəblərdə H.Məlikova, X.Ağayeva, R.Hacıbəyova, S.Vəzirova, Ş.Əfəndiyeva, A.Sultanova kimi ziyalı Azərbaycan qadınları müəllimlik edirdilər.

Əsrin əvvəllərində Bakı və b. şəhərlərdə yaşlıların da təhsil alması üçün əsasən bazar günü fəaliyyət göstərdikləri üçün "Bazar məktəbləri" adlanan müəssisələr də fəaliyyət göstərirdi.

Bu dövrdə Azərbaycan mədəniyyət xadimlərinin qarşısında duran ən mühüm vəzifələrdən biri də tədris-metodik vəsaitlər hazırlayıb nəşr etdirmək idi. Bu işdə R.Əfəndiyev, S.S.Axundov, F.Ağazadə, A.Şaiq, M.Mahmudbəyov, A.Səhhət, Ə.Əfəndiyev, Q.N.Narimanbəyov, Q.Qəmərlinski, Ü.Hacıbəyov, F.Köçərli kimi Azərbaycan ziyalılarının böyuk rolu olmuşdu. A.Şaiqin rəhbərliyi altında "Uşaq çeşməyi", "Gülzar" kimi dərsliklər, A.Mahmudbəyovun redaktorluğu ilə "İkinci il", "Türk ədəbiyyatına ilk qədəm", "Yeni türk əlifbası", M.Şahtaxtinskinin "Şərq əlifbasının fonetikası" adlı dərsliklər yazılmışdı.

XX əsrin əvvəllərində Azərbaycanda mədəni-maarif idarələri də fəaliyyət göstərməyə başlamışdı. Bakıda, Şuşada, Nuxada, Gəncədə, Qubada kitabxanalar açılmışdı. 1902-ci ildə Qara şəhərdə, 1906-ci ildə Bayılda açılmış xalq evlərində görkəmli mədəniyyət xadimlərinin mühazirələri təşkil edilirdi. 1907-ci ildə Bakıda müsəlman mədəni - maarif cəmiyyəti "Səadət", 1910-cu ildə isə "Səfa" cəmiyyəti fəaliyyət göstərməyə başladı.

Birinci rus inqilabından sonra Azərbaycanda milli mətbuat sahəsində də xeyli irəliləyişlər baş vermişdi. Bürokratiyanın maneçiliklərinə, tədbirlərə baxmarayaq Azərbaycanda 1917-ci ilin fevralınadək 227 dövri mətbuat orqanı nəşr edilmişdi. 1905-1917-ci illərdə Azərbaycanda nəşr olunan əsas mətbuat orqanları **"Həyat", "Tazə həyat", "Tərəqqi", "İttifaq", "Həqiqət", "İqbal", "Yeni iqbal" və b. qəzetlər idi.** Mətbuat tarixində "Müsavat" partiyasının orqanı olan "Açıq söz" qəzetinin xüsusi yeri var idi. Azərbaycanda bu dövrdə "Hümmət", "Təkamül", "Bakı həyatı" qəzetləri, "Yeni söz" jurnalı da nəşr olunurdu. Bunların içərisində inqilabi demokratik mətbuat orqanı olan satirik "Molla Nəsrəddin" jurnalı xüsusi yer tuturdu.

1905-1907-ci illər milli mətbuatın inkişafında nəşriyyatçılar qrupunun fəaliyyətini xüsusi qeyd etmək lazımdır. Nəşriyyatçılar arasında Orucov qardaşları, H.Vəzirov, İ.Aşurbəyli, Ə.Mikayılov, M.İbrahimov xüsusilə fərqlənirdi. Gəncədə, Lənkəranda, Şuşada, Naxçıvanda da kiçik mətbəələr fəaliyyət göstərirdi. C.Məmmədquluzadə və Ö.F.Nemanzadə Tiflisdə "Qeyrət" mətbəəsini təsis etmişdi.

Bu dövrün Azərbaycan ədəbiyyatı klassik ədəbiyyatın və şifahi xalq yaradıcılığının mütərəqqi ənənələrinə əsaslanmaqla bərabər Avropa və rus ədəbiyyatının da nailiyyətlərindən bəhrələnərək yeni ədəbi mərhələyə qədəm qoymuşdu. Azərbaycan tənqidi realizmi yüksək səviyyəyə çatmışdı. XX əsr Azərbaycan tənqidi realizm məktəbinin görkəmli nümayəndələri C.Məmmədquluzadə, M.Ə.Sabir, Ə.Haqverdiyev, Ə.Qəmküzar, Ə.Nəzmi, Y.V.Çəmənzəminli, Ə.Möcüz və b. idilər. C.Məmmədquluzadənin "Ölülər" komediyası, M.Ə.Sabirin "Hophopnamə"si, N.Nərimanovun "Pir" povesti, Ə.Haqverdiyevin "Pəri cadu" pyesi və s. XX əsr Azərbaycan ədəbiyyatının realist istiqamətinin ən parlaq nümunələri idi.

Bu dövrün digər ədəbi cərəyanı da romantizm idi. Onun ən böyük nümayəndələri M.Hadi, A.Səhhət, H.Cavid, A.Şaiq və b. idilər. H.Cavid Azərbaycan ədəbiyyatında şerlə yazılmış ilk dram əsərinin müəllifi idi. Onun fəlsəfi "Şeyx Sənan" faciəsi dini fanatizmə qarşı yönəlmişdi.

XX əsrin əvvəllərində ədəbi fəaliyyətin müstəqil istiqaməti kimi formalaşan Azərbaycan uşaq ədəbiyyatı A.Səhhət, A.Şaiq, M.Ə.Sabir, C.Məmmədquluzadə, S.S.Axundovun əsərləri sayəsində yarandı.

XX əsrin əvvəllərində Azərbaycan ədəbiyyatı tarixinin öyrənilməsinin əsasını qoyan görkəmli ədəbiyyatşünas alim F.Köçərli "Azərbaycan türklərinin ədəbiyyatı" adlı 3 cildlik əsərini yazdı.

Dünya ədəbi irsinin və ədəbi fikrinin öyrənilməsində, ictimai-siyasi və elmi-nəzəri məsələlərin təhlil edilməsində Ə.Hüseynzadə, Ə.Ağaoğlu, Ə.M.Topçubaşov kimi publisistlər fəal iştirak edirdilər. Bu dörvdə Azərbaycan elminin görkəmli nümayəndələrindən olan tarixçi-şərqşünas, etnoqraf M.Şahtaxtinski Sarbonna Universitetinin "Asiya fonetikası" cəmiyyətinin həqiqi üzvü idi.

XX əsrin əvvəllərində tarixşünaslıq elmi Rəşid bəy İsmayılovun "Qafqazın qısa tarixi" (1994), Hacı Şeyx Həsən Mollazadə Gəncəvinin "Zəbdətüt Təfarix" (Tarixin qaymağı), Mirzə Rəhim Fənanın "Qarabağın yeni tarixi" (1912) əsərləri ilə zənginləşdi.

XX əsrin əvvəllərində teatr, müsiqi, təsviri incəsənət də öz inkişafında yeni mərhələyə qədəm qoydu. Mədəni - maarif cəmiyyətlərinin yaranması Azərbaycan milli teatr sənətinin inkişafına və Azərbaycan teatrının H.Ərəblinski, C.Zeynalov, H.Sarabski, S.Ruhulla kimi korifeylərinin də yaranmasına təkan verdi. 1916-cı ildə H.Ərəblinski və H.Sarabskinin rəhbərliyi ilə yaradılan "Müsəlman dram cəmiyyəti" Azərbaycan teatrını həm də ölkə daxilində, həm də onun sərhədlərindən kənarda tanıtdı.

H.Ərəblinski 1916-cı ildə "Neft və milyonlar səltənətində" adlı ilk Azərbaycan filminin yaradılmasında yaxından iştirak etmişdir.

Azərbaycan opera teatrının yaranması da bu dövrə təsadüf edir. Azərbaycan müsiqisinin inkişafında Ü.Hacıbəyov, M.Maqomayev, C.Qaryaqdıoğlu, H.Sarabski, Q.Pirimov kimi mədəniyyət xadimlərimizin böyük xidmətləri olmuşdur. 1908-ci il yanvarın 12-də H.Z.Tağıyev teatrında Ü.Hacıbəyovun Azərbaycanın ilk milli operası olan "Leyli və Məcnun" operasının ilk dəfə tamaşaya qoyulması Azərbaycan musiqi tarixində mühüm bir hadisə oldu.

Azərbaycan müsiqili komediyalarının da banisi olmuş Ü. Hacıbəyovun "Ər və arvad", "O olmasın, bu olsun", "Arşın mal alan" komediyaları müəllifə dünya şöhrəti qazandırdı.1908-1915-ci illərdə Ü.Hacıbəyov "Şeyx Sənan", "Rüstəm və Zöhrab", "Əsli və Kərəm", "Şah Abbas və Xurşud Banu", "Harun və Leyla" kimi bir sıra yeni operalar yaratdı.

1913-cü il oktyabrın 25-də ilk dəfə milli musiqili teatr səhnəsində Ü.Hacıbəyovun "Arşın mal alan" musiqili komediyası səhnəyə qoyuldu və böyük müvəffəqiyyət qazandı.

Azərbaycan musiqi mədəniyyətinin inkişafında bəstəkar M.Maqomayevin də misilsiz xidmətləri olmuşdur. Onun 1916-cı ildə yaratdığı "Şah İsmayıl" operası Azərbaycan opera sənətinin qızıl fonduna daxil oldu.

XX əsrin görkəmli rəssamlarından Ə.Əzimzadə, B.Kəngərli Azərbaycan təsviri incəsənətinin tərəqqisində mühüm rol oynamışdılar. 1913-cü ildə Bakıda ilk rəsm əsərləri sərgisinin açılışı Azərbaycanın mədəni həyatında böyük hadisə idi.

Azərbaycanın XX əsr memarlıq incəsənətinin inkişafını qabaqçıl sənaye şəhərinə çevrilən Bakının gündən-günə artan memarlıq abidələrində görmək mümkün idi. O dövrdə tikilmiş İsmailiyyə (1910), Mayılov qardaşları teatrı (1911) hazırda da Azərbaycan memarlıq nümunələrinin parlaq incilərindən hesab olunur.

Azərbaycan memarlıq sənətinin inkişafında istedadlı memarlar olan, 1902-ci ildə Peterburq Mülki Mühəndislər İnstitutunu bitirmiş ilk azərbaycanlı mühəndis memar Zivər bəy Əhmədbəyov və Məmmədhəsən Hacinskinin özünəməxsus yeri olmuşdur.